# Q İ T Ə L Ə R

## 1

O köç günü ki, mən etdim vida Şirvana,
Təəssüf eylədi qəlbim, ciyər alovlandı.

Yanıb fəraq oduna, mən Arazla uzlaşdım,
Araz görüb halımı od tutub, o da yandı.

Ahım kimi iti axdı, qəmim kimi coşdu,
Xüruşə gəldi könül tək, kədərlə çalxandı.

## 2

Ermənistan torpağına çatan gündən, ermənilər
Ayağımın torpağına canlarını insar edər

Xüsusilə bu nəsturi məzhəbində olan qonşu
Hörmətimi çox saxlayır ikinci bir İsa qədər.

Həm də məni İsa kimi dördüncü göy əhli bilib,
Söz açarlar qüdrətimdən, sənətimdən axşam, səhər.

Hamı Ərcim dənizini, xeyli dərin o dəryanı
Mənim ilham dənizimin bir damlası hesab edər.

Bal şəhdidir hər bir sözüm, buna sən də qəlbən inan,
Şirinləşər ilhamımdan Ərciş bir az içsə əgər.

## 3

Soruşdun ki, ürəyində rəğbət yoxdur şahlara?
Bəli, yoxdur sultanlara rəğbətim zərrə qədər.

Rey valisi qoymadısa Xorasana gedim mən,
Nə eybi var, bundan mənə yetişməz heç bir zərər.

Lakin vali heç kəsə də verməsəydi icazə,
Gərək mənə fərq qoyaydı başqalardan bir qədər.

Mən gedirəm Xorasanda alimlərin yanına,
İşim yoxdur oradakı əmirlərlə, müxtəsər.

## 4

Xəlifə deyir ki, dəbirim olsan,
Qarşında baş əyər möhtəşəm dağlar.

Dəbirəm, doğrudur yazım misilsiz,
Lakin baş əymərəm bu işə, zinhar.

Bir dəbir olmaqla nə fəxr edim ki,
Vəzirlik mənimçün deyil iftixar.

Mən bir günəş ikən, ulduz olmaram,
Borc papaq qoymaqda nə məziyyət var?!

**5**

Xaqani dərdlidir arvad əlindən,
Bu aləm bir dərdli könülə dəyməz.

Qürbətdə bir arvad aldı ki, onun
Yüz nazı bir anlıq müşkülə dəyməz.

Birinci arvada dəyməz sonrakı,
Yüz qarğa bir gözəl bülbülə dəyməz.

Dünyaya dəyəni torpağa döndü,
Birini aldı ki, heç külə dəyməz.

**6**

Xaqanidən yuxarıda oturdunsa, nə olar,
Nə bu sənə bir hünərdir, nə də Xaqaniyə ar.

Çünki göydə qara üzlü, pis əməlli Zühəl də
Xoş sifətli Müştərinin üstündə tutmuş qərar

Harada ki, su neft ilə birləşərsə, qaydadır,
Aşağıda su yerləşər, yuxarıya neft qalxar.

Görmədinmi, xırmanda da döyüm vaxtı həmişə,
Ağır dənlər alta yatar, boş saman üstə çıxar.

**7**

Məndən tərif görər hər yaxşı insan,
Söymərəm nacinsi şerimdə bir an.

Bütün divanımda yoxdur iki həcv,
Mənim gülzarımda tapılmaz tikan.

## 8

Bağlamışdır üzümə xacə xeyir qapıların,
Açaram, zənn eləmə, ağzımı bir dərdə şərə.

O, mənə pislik edib, fitnə-fəsad eylədi ki,
Mən də bir pislik edəm, pis danışam bircə kərə.

Pak olam ağzımı murdarlayaraq pis demədim,
Bütün ömrüm boyu mən heç kəsə, heç bir nəfərə.

O məni min şərə, min böhtana salsın, nə zərər,
Onu təqdim edərəm, yaxşı deyib, mən şəhərə.

Dili pisdir, özü də pisliyə layiqdir onun,
İşi, həm də əməlilə tanınır çünki hərə.

O mənə göstərir öz cövhərini, neyləməli,
İndi qoy baxsın o da məndəki nadir göhərə.

## 9

Xaqaniyəm, dünya nədir, çəkə məni varına o?
Kimi qoyub beşcə günlük nemətindən barına o?

Gündüzdür - ağ gümüşü, gecəsidir - qara quruş,
Bundan artıq, ömrün boyu qıymaz sənə para
quruş...

Bu dünyada varın yoxsa, nə olsun ki, vardır
ağlın,
yoxsa, ağıl nədir, suya dönmüş qardır ağlın?!

Bağındakı salxımdakı qoraya da əsər fələk,
Əl uzatma, bir cəlladdır, əllərini kəsər fələk.

Bir uşaqda kişmiş görsə, mələr keçi kişmiş üçün,
Hara getsə, arxasınca gələr keçi kişmiş üçün.

Sanma bir gün kişmiş üçün gəzər uşaq keçisini,
Kişmişinə dadandırıb, kəsər uşaq keçisini.

## 10

Xaqaniyəm, sərvət eşqi ağlı başdan ala bilməz,
Sərvət-dövlət bir kölgədir, çıxar yoxa, qala
bilməz.

Dövlətinə qürrələnən kamillikdən bil, uzaqdır,
Od içində qarğı atla cövlan edən bir uşaqdır.

Əvvəl sübhün al şəfəqi, sonra qızıl güldü dövlət,
Əriyərək yoxa çıxar, yana-yana güldü dövlət.

Aldatmasın bu fələyin küpündəki boya səni,
Yas paltarı geyən gözəl dəvət etməz toya səni.

Sanma verər muradını, bir sərabdır kama fələk.
Şərbətini qıyan deyil, zəhər tökər cama fələk.

Sərvət eşqi - canın odu, kükrəsə də sönən olar.
Şölə saçıb yanan atəş axır külə dönən olar.

Çox möhnətin sonu bir gün səadətdir bu dünyada,
Qış gedəndə bahar gələr, - bir adətdir bu dünyada.

Əzəl başdan oyuncaqdır, çox şirindir var-dövlətin,
Bir gün dövran haram edər, qan-irindir var-dövlət

**11**

Xaqaniyəm, çörək üçün mən abrımı atım, niyə?
Hərislikdən göz yaşıma ürək qanı qatım, niyə?

Haram buğda ucbatından nələr çəkdi, Adəm nələr.
Haram çörək axtarma ki, başına min bəla gələr.

Bil ki, çörək qırıntısı qarışqaya bir dağ olar.
Yuvasına çatanadək canı yolda tapdaq olar.

Qırmaq atsa balıqlara, uşaq tutsun gərək onu?
Tora salar qırmaqdakı bircə tikə çörək onu.

Acgözlərin timsalıdır, - yem axtarar suda balıq,
Can atar ki, qabağına nə gəldisə uda balıq.

**12**

Xaqaniyəm, alçaqları ucaltmaram bir daha mən,
Quduzları tərifimlə eyləmərəm şir daha mən.

Gürzələrin ağzına mən abi-həyat süzüm neçin?
Rəzillərin qabağına gövhərimi düzüm neçin?

Mələklərə döndərmərəm bundan belə iblisləri,

İblis kimi tanıtdıram gərək elə iblisləri.